**«İnternet üzərindən nağdsız ödənişlərin həcmi artır»**

«Qolden Pay» şirkətinin təsisçisi Fərid İsmayılzadə hesab edir ki, Vergilər Nazirliyinin təşəbbüsü və təşkilatçılığı ilə keçirilən seminar, ilk növbədə, informasiya və təcrübə mübadiləsi baxımından əhəmiyyətlidir: «Müasir dövrdə informasiya, məlumat və biliklərin mübadiləsi iqtisadi sahədə çalışan hər bir şəxs üçün son dərəcə vacibdir. Bu baxımdan, Tədris Mərkəzində nağdsız ödənişlərin həcminin artırılması mövzusunda seminarın keçirilməsi, əsasən, yeni informasiyaların mübadiləsi üçün vacibdir. Tədbirdə iştirak edənlərin hər biri öz sahəsində peşəkar insanlar olduğu üçün onların açıqladığı məlumatlar ictimaiyyət tərəfindən də maraqla qarşılanır. Bu mənada, Vergilər Nazirliyinin təşkilatçılığı ilə belə bir mötəbər tədbirin keçirilməsini yüksək dəyərləndirirəm».

Fərid İsmayılzadə son vaxtlar ölkədə həyata keçirilən təşkilati tədbirlər nəticəsində ölkə vətəndaşlarının internet üzərindən ödəmələrə marağının artdığını,  elektron ticarətə imkan yaradan çoxsaylı internet portallarının yaradıldığını vurğulamışdır. O qeyd etmişdir ki, nağdsız ödənişlərin həcminin genişləndirilməsi tədbirləri təsərrüfat subyektlərində maliyyə intizamının gücləndirilməsinə, korporativ sektorda şəffaflığın artırılmasına, vergidən yayınma hallarının aradan qaldırılmasına, dövlət müəssisə və təşkilatları tərəfindən pul vəsaitlərinin daha səmərəli istifadəsinə xidmət edir.  «Qolden Pay» şirkətinin internet üzərindən nağdsız ödənişlərin genişləndirilməsi istiqamətində həyata keçirdiyi tədbirlərdən söz açan Fərid İsmayılzadə bildirmişdir ki, bu məqsədlə yaradılmış «www.hesab.az» portalının yaxın perspektivdə daha da təkmilləşdirilməsi nəzərdə tutulur: «Hesab edirik ki, həyata keçirilən tədbirlər nəticəsində nağdsız dövriyyənin həcmi sürətlə artır. Bu baxımdan, mən Vergilər Nazirliyinin istər təşkilati-texniki, istərsə də maarifləndirmə-təbliğat sahəsində həyata keçirdiyi tədbirləri yüksək dəyərləndirirəm. Şəxsən mən özüm də nağdsız ödənişlərdən geniş istifadə edirəm».